# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin institusional potensialının gücləndirilməsi**



**Prioritet sahə:**

Qoruyan tərəfdaşlıq, Dövlət idarəçiliyi və dövlət administrasiyası

**Əlaqə nömrəsi (CRIS):** 399-769

**İcra müddəti:** 01.10.2018 - 31.10.2020

**Aİ-nin maliyyə yardımı:** € 1 000 000

**Ümumi büdcə:** € 1 000 000

**İcraçı təşkilat(lar):**

EPRD Sp. z o.o.

**Sosial media hesablarına keçidlər:**

NA

**Internet səhifəsi:** NA

**Layihənin təsviri:**

Layihə Təhsil Nazirliyinin (TN) Təhsil Sektoru İslahatı prosesini idarə etmək, izləmək və dəstəkləmək üçün institusional potensialın gücləndirilməsinə yönəlib.
Layihə çərçivəsində İnsan resursları departamentinin əməliyyat strukturu nəzərdən keçirilib, Departamentin iş yükü və bölmələrinin iş həcmi qiymətləndirilib. Müasirləşdirmə/optimallaşdırma ilə bağlı təkliflər benefisiara təqdim edilib.
Layihə eləcə də Təhsil Nazirliyinin funksional təhlilini hazırlayıb, şöbələrin əsasnamələrini nəzərdən keçirib, şərh edib və yeniləmələri ilə bağlı tövsiyələr hazırlayıb. Nəhayət, ən yaxşı təcrübə nümunələri və iş təsvirlərinə dair şərhlər də daxil olmaqla iş təsvirləri haqda təlimat hazırlanıb.
İkinci layihə komponenti Nazirlik işçilərinin yanında, əsasən İR heyəti olmaqla, tabeli şöbələrin işçilərinin potensialının artırılmasına yönəlib. Ətraflı təlim ehtiyaclarının təhlilindən sonra bir sıra təlim sessiyaları təqdim edilib. Layihə çərçivəsində Təhsil Nazirliyi daxilində mövcud və hazırlanmış yeni İR İdarəetmə və Administrasiya qaydaları da yenilənib.

**Gözlənilən nəticələr:**

- TN-nin İnsan resursları departamentinin institusional və əməliyyat potensialı ehtiyacları müəyyənləşdirilib və həll edilib;
- TN-dəki şöbələrin əsasnamələri və vəzifə təlimatları, bütün vəzifələr üçün tələblər nəzərdən keçirilib və lazımi qaydada yenilənib;
- İnsan resursları departamenti işçilərinin peşəkar və idarəetmə imkanları yaxşılaşıb;
- TN-nin tabeli şöbələrində/qurumlarında İnsan resursları departamentinin işçilərinin peşəkar və idarəetmə imkanları yaxşılaşdırılıb;
- "Dövlət qulluğu haqqında" Qanunun müddəalarına uyğun olaraq, insan resurslarının idarə edilməsi üçün tələb olunan prosedurlar, təlimatlar və daxili siyasət prinsipləri hazırlanıb və sınaqdan keçirilib;
- TN-nin qərargahında çalışanların bacarıqlarının artırılması üzrə ehtiyaclar müəyyənləşdirilib və həll edilib.

**Tədbir siyahısı (son üç tədbir):**

Workshop on preparation of job descriptions